**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№342/5** **04 aprel 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurasının 2021-ci il 28 dekabr tarixli 339/3 nömrəli "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə tərəfindən aparılmış keyfiyyətə nəzarət üzrə monitorinqlərin nəticələrinin təsdiq edilməsi barədə" qərarında dəyişiklik edilməsi barədə**

Auditorlar Palatasının üzvü "Deloitte and Touche" məhdud məsuliyyətli auditor cəmiyyəti tərəfindən Auditorlar Palatasına 2022-ci il 12 yanvar tarixində ünvanlanmış məktubu və həmin məktuba dair Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının 2022-ci il 31 yanvar tarixli iclasının protokolunu müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının 2022-ci il 31 yanvar tarixli iclasının protokolu nəzərə alınsın (əlavə olunur).

2. Auditorlar Palatası Şurasının 2021-ci il 28 dekabr tarixli 339/3 nömrəli qərarının 2-ci bəndinə əsasən "Deloitte & Touche" məhdud məsuliyyətli auditor cəmiyyətinin 01 iyul 2018-ci il tarixdən – 01 iyul 2021-ci il tarixədək olan dövr üzrə apardığı auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun monitorinqinin nəticəsinə dair verilmiş 4 (Qənaətbəxş) qiyməti Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Apellyasiya Komissiyasının 2022-ci il 31 yanvar tarixli iclasının protokoluna əsasən 5 (Keyfiyyətli) qiyməti ilə əvəz edilsin.

3. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**